# Vətən Müharibəsində qazandığımız Şanlı Qələbə ədliyyə işçiləri üçün də qürur mənbəyidir




Noyabrın 22-si ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Bu münasibətlə "İki sahil" AZƏRTAC-a istinadən Səadət Sarayının (Bakı Nikah Evi) müdiri, baş ədliyyə müşaviri İradə İsgəndərovanın məqaləsini təqdim edir.

Ədliyyə işçilərinin peşə bayramı günü ulu öndər Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə təsis edilib. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra məhkəmə-hüquq və bütövlükdə ədliyyə sisteminin təkmilləşməsi bilavasitə Ümummilli Liderimizin adı ilə bağlıdır. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi, daha sonra Hüquqi İslahat Komissiyasının yaradılması və səmərəli fəaliyyəti, qısa müddətdə məhkəmə və hüquq mühafizə orqanlarının fəaliyyətini tənzimləyən yeni qanunvericilik aktlarının qəbulu ölkədə ədliyyə sisteminin sürətli inkişafına zəmin yaradıb, Ədliyyə Nazirliyinin fəaliyyətində əsaslı dəyişikliklər aparılaraq nazirlik dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilib.

Bu gün Azərbaycan Respublikasının ədliyyə sistemi ölkəmizdə insan hüquq və azadlıqlarının təminatı istiqamətində əldə etdiyi xidməti nailiyyətləri və həyata keçirdiyi uğurlu fəaliyyəti ilə cəmiyyətdə özünə qarşı yüksək etimad formalaşdırıb.

2003-cü ildən ümummilli lider Heydər Əliyevin hüquq siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin insan hüquqlarının etibarlı qorunması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, hüquqi xidmətin yaxşılaşdırılması barədə tapşırıqlarının icrası üzrə görülmüş tədbirlər nəticəsində ədliyyə sistemi öz inkişafının yeni, müasir mərhələsinə qədəm qoyub. Dövlətimizin başçısı tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq cəmiyyətdə mühüm rolu təsbit edilib, ona hüquq mühafizə orqanı statusu verilib. Ədliyyə və məhkəmə sisteminin inkişafı və müasirləşdirilməsi barədə proqram xarakterli fərmanların imzalanması, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" qanunların qəbul olunması, ədliyyənin inkişafı üzrə xüsusi Dövlət Proqramının təsdiq edilməsi Azərbaycan ədliyyəsinin inkişafına mühüm təkan verib.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, milli dövlətçiliyimizin gücləndirilməsi, mütəmadi məhkəmə-hüquq islahatlarının aparılması, o cümlədən ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə genişmiqyaslı tədbirlər həyata keçirilir. Dövlətimizin başçısının tapşırığı ilə ədliyyə və məhkəmə infrastrukturunun möhkəmləndirilməsi, əhaliyə hüquqi xidmətin yaxşılaşdırılması, elektron idarəetmə və sənəd dövriyyəsinin təşkili üzrə ardıcıl işlər görülür. Ədliyyə fəaliyyətinin dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkili, müasir texnologiyaların və idarəçilik metodlarının tətbiqi istiqamətində davamlı addımlar atılır.

Əminliklə deyə bilərik ki, ədliyyə orqanları respublikamızda hüququn müxtəlif sahələrini əhatə edən inkişaf prosesində, eyni zamanda, məhkəmə-hüquq islahatlarının uğurla həyata keçirilməsində müstəsna yer tutur. Ədalət mühakiməsinin səmərəliliyinin artırılması, əhalinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədilə ədliyyə orqanlarında, o cümlədən məhkəmələrdə müasir texnologiyalar tətbiq edilərək göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, həmçinin şəffaflıq və operativliyin təmin olunması istiqamətində olduqca mühüm işlər görülüb.

Ölkəmizin ədliyyə sisteminin inkişafı və təkmilləşdirilməsi dövlətimizin başçısı İlham Əliyevin daim diqqət mərkəzindədir. Ədliyyə sahəsində tətbiq olunan yeniliklərin hər biri xalqımızın mənafeyinə, vətəndaşlarımızın rifahının yüksəldilməsinə xidmət edir. Ölkə vətəndaşları bu dəyişiklikləri öz gündəlik həyatlarında da açıq-aşkar hiss edərək qiymətləndirirlər.

Azərbaycanda yeni dövrün çağırışlarına uyğun olaraq qeyri-neft sektorunun inkişafı, biznes sahəsində müşahidə edilən problemlərin aradan qaldırılması üçün yeni məhkəmə sistemi formalaşdırılıb və kommersiya məhkəmələri yaradılıb. Hüquqi və iqtisadi islahatların paralel aparılması iqtisadiyyatın inkişafı üçün mühüm şərtlərdəndir.

Bundan əlavə, pandemiya dövründə tətbiq olunan yeniliklərdən biri olan distant məhkəmələrin mümkünlüyü sahibkarların məhkəməyə gəlmədən kompüter vasitəsilə mövqeyini bildirməsi imkanını yaradıb. Ümumiyyətlə, işlərin "Elektron məhkəmə" informasiya sistemi ilə avtomatik bölgüsü onun keyfiyyətini və məhkəməyə inamı artırır.

Bu gün Azərbaycan dövləti öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Dünya birliyi Azərbaycanı sivil, demokratik, eyni zamanda, multikultural dəyərlərə, ədalət və humanizm prinsiplərinə sadiq dövlət kimi tanıyır. Ölkədə bütün sahələrdə aparılan islahatlarla yanaşı, Azərbaycanın beynəlxalq arenada da nüfuzu getdikcə artır. Lakin bu illər ərzində əldə edilən bütün uğurlara baxmayaraq, xalqımızın əsas problemi olan ərazi bütövlüyünün bərpası uğrunda aparılan danışıqlar nəticə verməyib.

Dövlətimizin başçısı İlham Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində Ermənistan-Azərbaycan münaqişəsi barədə reallıqlar mötəbər beynəlxalq təşkilatlar çərçivəsində dünya ictimaiyyətinə çatdırılıb. Bütün beynəlxalq normalar Azərbaycanın ərazi bütövlüyünü təsdiqləsə də, Ermənistan hökumətinin qeyri-konstruktiv mövqeyi səbəbindən münaqişənin sülh yolu ilə həlli mümkün olmayıb. Üstəlik, işğalçı Ermənistan yeni ərazilər zəbt etmək niyyəti ilə dəfələrlə təxribat xarakterli əməliyyatlar həyata keçirməyə cəhd göstərib. Belə ki, son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almış, iyulda Ermənistanın dövlət sərhədi istiqamətində növbəti təxribatı nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdu. Avqustda isə erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd göstərmişdi. Bu təxribatlar Ermənistanın avantürist və təcavüzkar hərbi-siyasi rəhbərliyinin bəyan etdiyi yeni ərazilər uğrunda yeni işğal siyasətinin davamı idi. Bütün hallarda ordumuzun atdığı qətiyyətli addımlar nəticəsində Ermənistanın hərbi qüvvələrinə layiqli cavab verilib.

Məlum olduğu kimi, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq ordumuzun cəbhə zonasında yerləşən mövqelərini və dinc insanların yaşadığı bir sıra məntəqələri qəsdən və hədəflənmiş şəkildə intensiv atəşə tutdu. Bu da öz növbəsində Azərbaycanı özünümüdafiə hüququndan istifadə edərək Ermənistanı sülhə məcbur etmək, onun təxribatlarının, hərbi avantüralarının və Azərbaycana qarşı işğalçı siyasətinin qarısını almaq məqsədilə əks-hücum əməliyyatı həyata keçirmək məcburiyyətində qoydu. 44 gün davam edən əks-hücum əməliyyatı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusunun zəfər yürüşü kimi şanlı tariximizə yazıldı. Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz əzəli torpaqlarımızı zəbt edən düşmənə sarsıdıcı zərbələr endirdi və torpaqlarımızı 30 illik işğaldan azad edərək tarixi zəfərə imza atdı.

Cəbhədə məğlubiyyətə düçar olan Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüquq normalarını kobudcasına pozaraq dinc sakinləri və mülki infrastrukturu hədəfə aldı. Belə ki, erməni silahlı birləşmələri hərbi hədəfli obyektlərin vurulması adı ilə döyüş bölgəsindən xeyli uzaqda yerləşən, mülki əhalinin sıx yaşadığı əraziləri və məntəqələri ağır artilleriyadan atəşə tutaraq müharibə cinayətləri törətdi. Vətən Müharibəsi başlanan vaxtdan Gəncə, Mingəçevir, Bərdə, Tərtər, Ağcabədi, Goranboy şəhərləri və digər yaşayış məntəqələrimiz raket hücumuna məruz qaldı.

Düşmənin silahlı qüvvələrinin çirkin əməlləri və Azərbaycan xalqına qarşı törətdikləri növbəti dəhşətli və insanlıqdan uzaq cinayətlər nəticəsində 94 dinc sakin həlak oldu, 400-dən artıq mülki şəxs yaralandı və mülki infrastruktura ciddi ziyan vuruldu.

Bu müharibə cinayətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması üçün Ədliyyə Nazirliyi də daxil olmaqla, bütün dövlət orqanları müvafiq iş aparıb. Döyüş meydanında məğlubiyyətə uğrayan işğalçı Ermənistanın qəsdən mülki əhaliyə hədəflənən qeyri-insani əməllərindən əl çəkməyərək beynəlxalq hüququn qadağan etdiyi kasetli bombalar və ballistik raketlərlə yuxarıda qeyd olunan şəhərlərdə və yaşayış məntəqələrində qətliam törətməsi ilə bağlı ədliyyə naziri Fikrət Məmmədov tərəfindən xarici ölkələrin ədliyyə nazirlərinə xüsusi müraciətlər ünvanlanıb.

Müraciətlərdə 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan münaqişəsinin bir milyondan çox azərbaycanlının taleyinə ciddi təsir göstərmiş faciəvi nəticələri qeyd olunub. Həmçinin vurğulanıb ki, Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları irəli sürən Ermənistan 90-cı illərin əvvəllərində hərbi təcavüzə başlayıb. Ərazilərimizin 20 faizini işğal edərək orada Azərbaycan əhalisinin etnik təmizləməsini həyata keçirib və bunun nəticəsində bir milyon insan qaçqın və məcburi köçkünə çevrilib.

Bundan əlavə, Vətən Müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin beynəlxalq humanitar normaları kobud şəkildə pozmalarına və mülki şəxslərə qarşı törətdikləri hərbi cinayətlərə dair müraciətlər bir çox beynəlxalq qurumlara və nüfuzlu təşkilatlara da ünvanlanıb.

Təcavüzkar Ermənistanın törətdiyi müharibə cinayətlərinə baxmayaraq, Azərbaycan xalqı ruhdan düşmədi və Ali Baş Komandan İlham Əliyevin ətrafında daha da sıx birləşdi. Məhz bu sarsılmaz birlik və dəstək sayəsində rəşadətli ordumuz 30 ildir həll edilməsi müşkül məsələyə çevrilmiş ərazi bütövlüyümüzü qısa müddətdə bərpa etməyi bacardı. Bu müqəddəs yolda canından keçən hərbçilərimiz və bu tarixi zəfərdə imzası olan hər kəs daim dövlətin diqqəti və qayğısı ilə əhatə olunacaq.

Xüsusilə burada Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əvəzsiz rolu qeyd olunmalıdır. Daim ruhlandırıcı müraciətləri ilə ordumuzu qələbəyə səsləyən Mehriban Əliyeva hər zaman şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə və onların ailə üzvlərinə yüksək diqqət və qayğı göstərib. Təsadüfi deyil ki, ölkə başçısının vətəndaşların sağlamlığının qorunmasına göstərdiyi xüsusi diqqət nəticəsində inşa olunmuş səkkizmərtəbəli reabilitasiya mərkəzində Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə döyüşlərdə yaralanan hərbçilərə xidmət göstərilməsi qərara alınıb.

Sonda qeyd etməyi lazım bilirik ki, bu gün ərazi bütövlüyümüzün bərpası uğrunda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində qazanılan tarixi qələbə Azərbaycan xalqının birliyinin təntənəsidir. Prezidentimizin də vurğuladığı kimi, Vətən Müharibəsindən sonra yeni həyat başlayacaq, ölkəmizdə müsbət istiqamətdə böyük dəyişikliklər müşahidə olunacaq.

Əminik ki, bu müsbət dəyişikliklər həyatın bütün sahələrini, o cümlədən ədliyyə sistemini əhatə etməklə ümumilikdə xalqımızın rifahına xidmət edəcək. Vətən müharibəsində qazandığımız şanlı Qələbəmiz bütün xalqımız kimi, ədliyyə işçilərinin də qürur mənbəyidir. Tarixi zəfərdən ruhlanan bütün ədliyyə işçiləri bundan sonra da öz fəaliyyətini uğurla davam etdirəcək, öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqlar.

# Erməni vəhşiliyi sərhəd tanımır



Sevinc Azadi

Vətən müharibəsi adlandırılan ikinci Qarabağ müharibəsinin Ermənistanın tam kapitulyasiyası ilə yekunlaşması Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. İlk növbədə qeyd edək ki, Ermənistanın kapitulyasiyası ilə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və konstitusion quruluşu bərpa olundu. Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyinin imzaladığı Bəyanata əsasən, işğalçı qüvvələr Kəlbəcər rayonunu noyabrın 15-dək boşaltmalı idi. Amma Ermənistan tərəfi ordunun və qanunsuz olaraq yerləşdirilmiş insanların rayondan çıxarılması üçün əlavə 10 gün vaxt istəyib. Azərbaycan dövləti öz humanist xarakterini bir daha nümayiş etdirməklə, Rusiya Prezidenti Vladimir Putinin xahişini nəzərə alaraq, bu müddəti noyabrın 25-dək uzadıb. Halbuki 1993-cü ildə Kəlbəcərin işğalı zamanı erməni hərbi birləşmələri əhaliyə rayonu tərk etmələri üçün cəmi 10 saat vaxt vermişdi. Buna baxmayaraq, Azərbaycan humanistlik göstərərək, daha 10 gün gözləməyə razılaşıb. Şübhəsiz ki, Azərbaycan tərəfi bu qərarı qəbul edərkən Kəlbəcər rayonunun coğrafi baxımdan böyük bir ərazini əhatə etməsini, relyefin mürəkkəbliyini, hava şəraitinin ağırlaşmasını və rayondan çıxış üçün cəmi bir yolun olduğunu nəzərə alıb. Həmçinin nəzərə alınıb ki, Ermənistanın işğal etdiyi Ağdam rayonu ərazisindəki qoşunları da Qarabağdan çıxmaq üçün Kəlbəcər yolundan istifadə etməyə məcburdur. Kəlbəcəri Ermənistanla birləşdirən yolun texniki imkanları insanların kütləvi hərəkətinə imkan vermədiyindən, tıxaclar, ləngimələr müşahidə olunur. Qərarın qəbulu bir daha sübut edir ki, Ermənistandan fərqli olaraq, Azərbaycan həm müharibə, həm də sülh dövrünün qaydalarına tam əməl edir. Hərbi əməliyyatlar zamanı mülki şəxsləri və yaşayış məntəqələrini hədəf seçməyən Azərbaycan Ordusu hazırda rayonun sakit və təhlükəsiz şəkildə boşaldılmasını təmin edir.

Təəssüf ki, Azərbaycanın humanist yanaşması fonunda, erməni hərbi qüvvələri, eləcə də bu torpaqlarda qanunsuz məskunlaşmış mülki ermənilər gethagetdə belə öz murdar xislətlərinə sadiq qalaraq yeni-yeni vəhşiliklər etməkdən çəkinmirlər, Kəlbəcərdə əsl barbarlıq nümayiş etdirirlər. Bütün bunlar xarici KİV-in və dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Belə ki, döyüş meydanında rüsvayçılıqla məğlub olmuş bu nifrət dolu adamlar dünyanın gözü qarşısında ekoloji terror aktları törədərək meşələri yandırır, yaşadıqları evləri dağıdır, kəlbəcərlilərə abad yaşayış massivi və normal təbiət buraxmaq istəmirlər. Sosial şəbəkələrdə yayılan videolarda ermənilərin nə qədər antibəşəri düşüncə daşıdıqları, hər cür vandallığa hazır olduqları açıq-aydın görünür. Kəlbəcəri tərk edən ermənilər hətta yaşadıqları evlərin qapı və pəncərələrini söküb özləri ilə aparırlar. Kəlbəcərdən reportaj hazırlayan "BBC News"un Moskva müxbiri Stiv Rozenberqə danışan ermənilər yaşadıqları evlərdə azərbaycanlıların yaşamaması üçün bu addımı atdıqlarını bildiriblər. Kəlbəcərdən ermənilərin köçü ilə bağlı "Sputnik Armenia" da material yayımlayıb. "Sputnik Armenia"nın çəkiliş qrupunun məlumatına görə, Kəlbəcəri tərk edən ermənilər sözün həqiqi mənasında evləri, dükanları, elektrik yarımstansiyalarını söküb dağıdırlar. Ermənilər çoxlu sayda mikroavtobus və yük maşınlarında daşına bilən hər şeyi - ev əşyalarını, mebelləri belə özləri ilə aparırlar. Onlar bütün yaşayış və inzibati binaları məhv edirlər. Hətta Kəlbəcər şəhərində fəaliyyət göstərən məktəblərdən birinin direktoru getməzdən öncə məktəb binasına od vurub.

Kəlbəcəri tərk edərkən erməni hərbçilərdən ibarət bir qrup ermənilərə məxsus məzar daşlarını dağıdıb. Bu barədə Ermənistanda yaşayan Livan ermənisi, keçmiş döyüşçü Simon Qafalyan məlumat verib. O qeyd edib ki, hərbçilər keçmiş erməni döyüşçü Petros Qevondyanın öldüyü yerdə yerləşən məzar daşını dağıdıb və baş daşını Ermənistana gətirmək istəyib: "Dostlar, bacılar, qardaşlar, "Facebook"dan çıxın, baş verənlər o qədər ağır məsələdir, o qədər ciddi tarixi təhlükəli məsələdir ki, dəyişmək çox təhlükəlidir. Nikol Paşinyana bir sual: sənə kim hüquq verdi ki, xalqın fikrini soruşmadan torpağı təhvil verəsən?", - deyə Qafalyan bildirib.

Kəlbəcərdən çıxan ermənilər yalnız evləri yandırmaqla kifayətlənmirlər, meşələrdə, yol kənarlarında ağacları da kəsib özləri ilə Ermənistana aparırlar. "Sputnik Armeniya" portalında dərc edilən məqalədə bildirilir ki, kəsilən ağaclar yük, hətta minik maşınlarına yüklənərək Ermənistana daşınır. O da qeyd olunur ki, üçtərəfli (Azərbaycan, Rusiya və Ermənistan) razılaşmaya görə Kəlbəcəri tərk etməli olan insanlar mikroavtobus, iri yük maşınları ilə oradan hər şeyi daşıyırlar, özləri ilə apara bilmədiklərini isə yandırırlar ki, azərbaycanlılara heç nə qalmasın. Onlar hətta rayonda yerləşən elektrik dirəklərini də çıxarıb aparırlar. Bunlar azmış kimi azğın, vəhşi ermənilər buradakı heyvanları öldürüb, leşlərini əraziyə atıblar. Bununla bağlı görüntüləri rusiyalı jurnalistlərdən biri sosial şəbəkədə yayımlayıb.